E- 1496

Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,
üzvlər– N.F.Nəsibova, E.Ş.Qafarov

etiraz ərizəsini verən iddiaçı- “The Procter & Gamble Company (US)” */ünvan – One Procter & Gamble Plaza Cincinnati, Ohi, ABŞ (US)/* kompaniyasının nümayəndəsi patent müvəkkili V.F.Əfəndiyevin və

qarşı-tərəfin “Amouage SAOC (OM)” şirkətinin */ünvan:* PO Box 307, CPO 111, Seeb, Oman (OM)/ nümayəndəsi patent müvəkkili X.N.Məmmədovanın iştirakı ilə,

Z.T.Hacıyevin məruzəsilə etiraz üzrə işə baxaraq müəyyən etdi:

13.11.2017 il tarixdə “Amouage SAOC (OM)” *şirkətinə* məxsus “MYTHS” adlı əmtəə nişanının 03-cu sinfin əmtəələri üzrə qeydiyyatına qarşı *(qeydiyyatı təsdiqləyən N2017 0567 nömrəli şəhadətnamə; qeydiyyat tarixi – 20.06.2017; ilkinlik: 22.09.2016; sinif: 03)* iddiaçının nümayəndəsi patent müvəkkili V.F.Əfəndiyev tərəfindən “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 29-cu maddəsində nəzərdə tutulmuş əsaslara görə Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsi onunla əsaslandırılmışdır ki, “The Procter & Gamble Company (US) aşağıda göstərilmiş əmtəə nişanının 03-cü sinifdə əhatə etdiyi bütün əmtəələr üzrə hüquqi mühafizə verilməsini əsassız hesab edir.

| | |
|---|---|
| Əmtəə nişanı: | **“MYTHS”** |
| Şəhadətnamənin No. | 2017 0567 |
| Qeydiyyat tarixi | 20.06.2017 |
| İddia sənədinin No. | 2016 33103 |
| İddia sənədinin daxil olma tarixi: | 09.08.2016 |
| İddiaçı: | “Amouage SAOC” (OM) |
| Sinif 03: | Sabunlar; ətriyyat məhsulları; ətirlər; aromatik maddələr; efir yağları; kosmetik vasitələr; saç üçün losyonlar; saç və dəri qulluq üçün preparatlar; üz və bədən üçün kremlər və losyonlar; pudra; duşda və vannada istifadə üçün preparatlar; dezodorantlar. |

“The Procter & Gamble Company” 1837-ci ildə ABŞ-ın Ohayo Ştatının Sinsiati şəhərində təsis edilmiş və kompaniya hal-hazırda dünyanın istehlak malları bazarının əsas üç istiqaməti üzrə lider mövqelərdən birini tutur: “ev üçün mallar”, “gözəllik və özünə qulluq etmə”, “sağlamlıq və sağlam həyat tərzi”. Fortune 500 cədvəlində kompaniya 22-ci yeri tutur, gəlirinin həcminə, bazar kapitalına görə və dünyada ən böyük reklam sifariş edən kompaniyalarından biridir. “The Procter & Gamble Company” brendlərin idarəetmə sisteminin banisi sayılır. Hal-hazırda kompaniyanın aktivində dünya üzrə satış həcmi 1 mlrd. ABŞ dollarından çox olan 23 brend və bundan əlavə satış həcmi 500 mln. ABŞ dolları təşkil edən 22 brend mövcuddur. Kompaniyanın əsas brendlərindən biri MYTH brendidir – bu ad altında məhsul yeniləşdirilmiş variantda bazara 1995-ci ildə çıxarılmışdır. İntellektual mülkiyyət hüquqlarının qorunması yönümündə, MYTH əmtəə nişanının qeydiyyatı bütün dünya üzrə həyata keçirilir.

“The Procter & Gamble Company” Azərbaycanda aşağıda sadalanmış əmtəə nişanlarının hüquq sahibidir:

| | |
|---|---|
| Əmtəə nişanı: | **“MYTH”** |
| Şəhadətnamənin No. | 2004 0354 |
| Qeydiyyat tarixi | 19.07.2004 |
| İddia sənədinin No. | 2003 0409 |
| İddia sənədinin daxil olma tarixi: | 21.08.2003 |
| Sinif 03: | Ağartma üçün preparatlar və yuma üçün digər maddələr; təmizləmə, pardaxlama, yağsızlaşdırma və abraziv emal üçün preparatlar; sabunlar. |

| | |
|---|---|
| Əmtəə nişanı: | **“МИФ”** |
| Şəhadətnamənin No. | 2004 0355 |
| Qeydiyyat tarixi | 19.07.2004 |
| İddia sənədinin No. | 2003 0410 |
| İddia sənədinin daxil olma tarixi: | 21.08.2003 |
| Sinif 03: | Ağartma üçün preparatlar və yuma üçün digər maddələr; təmizləmə, pardaxlama, yağsızlaşdırma və abraziv emal üçün preparatlar; sabunlar. |

İddiaçının fikrinə görə, Azərbaycanda 2017 0567 No-li şəhadətnamə üzrə 03-cü sinifdə əhatə edilmiş əmtəələr üzrə "MYTHS" əmtəə nişanının hüquqi mühafizə verilməsi qeyri-qanunidir, belə ki, "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun aşağıda göstərilmiş müddəalarına ziddir:

*Maddə 6. bənd a): "Aşağıdakılarla eyni olan və ya onlara qarışdırılacaq dərəcədə bənzər olan nişanlar əmtəə nişanı kimi qeydə alınmır: a) Azərbaycan Respublikasında eyni və ya oxşar əmtəələrə və ya xidmətlərə aid başqa şəxsin adına qeydə əvvəl alınmış və ya qeydə alınmaq üçün iddia edilmiş əmtəə nişanları;"*

*Maddə 5. bənd f): "Aşağıda göstərilən nişanların qeydə alınmasına yol verilmir: f) əmtəələrin və ya xidmətlərin xüsusiyyətləri, keyfiyyəti və ya coğrafi mənşəyi ilə əlaqədar istehlakçını yanılda bilən əmtəə nişanları".*

2017 0567 No-li "MYTHS" nişanı yuxarıda göstərilmiş "The Procter & Gamble Company" adına 03-cü sinifdə iddia edilmiş siniflər üzrə Azərbaycanda öncə qeydiyyata alınmış "MYTH" əmtəə nişanları ilə qarışıqdırılacaq qədər oxşar olan nişandır. "Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları"na uyğun olaraq nişanların oxşarlığının təyin edilməsi üçün onların səs (fonetik), qrafik (xarici görünüşü) və mənaca (semantik) nöqteyi-nəzərdən müqayisəsi aparılır. Söz nişanlarının ekspertizası zamanı ilk növbədə onların arasında olan fərqliliyə deyil, oxşarlığa diqqət yetirilir. "The Procter & Gamble Company" kompaniyasına məxsus olan 2004 0354 No-li "MYTH" əmtəə nişanı qara rəngdə, standart şriftlə latın əlifbası ilə yazılmışdır. 2004 0355 No-li "МИФ" əmtəə nişanı eyni şriftlə, üslubla, kiril əlifbası ilə yazılmışdır. Müqayisə edilən "MYTH" və "MYTHS" nişanları sözlərdən ibarət nişan olaraq müvafiq olaraq latın alfavitinin 4 və 5 hərflərindən ibarətdirlər. Bununla yanaşı, "MYTH" nişanını təşkil edən hərflər tam surətdə eyni ardıcıllıqla "MYTHS" nişanının tərkibinə daxildir. Hər iki nişan xüsusi qrafik üslublardan istifadə etmədən, ağ-qara rənglə yerinə yetirilmişdir ki, göstərilənlər də öz növbəsində onların intellektual simalarının lakonikliyi ilə şərtlənir ki, bu hal da onların oxşarlığını daha da qabardır. Nişanların ümumi oxşarlığının əsas göstəricilərindən biri onların fonetik (səs) oxşarlığıdır, xüsusi ilə kommunikasiya zamanı əmtəə barəsində istehlakçılar və satıcılar arasında şifahi informasiyanın ötürülməsi zamanı. Fonetik oxşarlığın təyin edilməsi zamanı bir neçə kriteriya nəzərə alınmalıdır, xüsusi ilə: sözün uzunluğu, üst-üstə düşən sözlərin, hecaların sayı və tərkibi, yaxın səslərin və səs birləşmələrinin biri-birinə nisbətdə yerləşməsi, samit və sait səslərin tərkibi, səslərin, hecaların və s. oxşarlığı. Müqayisə edilən nişanların hərf tərkibi "MYTH" nişanlarının "MYTHS" nişanının tərkibinə tam surətdə daxil olması ilə şərtlənir ki, bu da öz növbəsində nişanların səs oxşarlığının biri-biri ilə qarışıq salma dərəcəsinə qədər oxşar olmasını şərtləndirir. Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (bundan sonra "ÜƏMT") Tövsiyələri" ndə deyilir:

*"Tələffüzdə oxşarlıq o mənada böyük əhəmiyyət kəsb edir ki, müxtəlif yazılış tərzinə malik olan nişanlar, eyni tərzdə tələffüz edilə bilərlər və tələffüz şifahi nitqdə nəzərə alınır: belə ki, hətta yazılış tərzində oxşar olmayan qrafik işləmələrin yerinə yetirilməsi üsulu ilə oxşarlıqdan qaçmaq mümkün olsa belə iki əmtəə nişanının şifahi müqayisəsi zamanı bu hal heç bir əhəmiyyət kəsb etmir".*

Nişanların biri-biri ilə qarışıq salma dərəcəsinə qədər oxşarlığı məhz onların fonetik cəhətdən əsaslı surətdə oxşarlığı ilə səciyyələnir, bu da öz növbəsində, müqayisə edilən nişanların ümumilikdə onların biri-biri ilə qarışdırılacaq dərəcədə oxşar olması ilə şərtlənir. Müqayisə edilən nişanların məna cəhətdən təhlili onların ingilis dilində tək və cəm hallarda olması ilə qavranır, "myth" (tərcüməsi mif, real olmayan bir mövhum, əşya, uydurma, əfsanə və sairə). "MYTHS" nişanının və "MYTH" nişanlarının qavranması prosesində, istehlakçıların şüurunda bu nişanların ümumi semantik oxşarlığını təyin edən oxşar intellektual obrazlar formalaşacaq və onların istehlakçılar tərəfindən qarışdırılmasına zəmin yaradacaqdır.

ÜƏMT-nın "Tövsiyələrində" həmçinin aşağıdakılar qeyd edilmişdir:

*“... nişanların müqayisəsi zamanı alınmış ilk təəssürat ən əsas amil sayılır. Məhz alınmış ilk təəssürat istehlakçılar tərəfindən nişanların qavranmasında ən yaxını hesab edilir, belə ki, istehlakçılar əmtəə nişanını onların yaddaşında həkk olunmuş sima ilə müqayisə edirlər. Buna görə də, müqayisə edilən nişanlardan əldə edilmiş ilk təəssürat oxşarlıq təəssüratıdır, sonrakı təhlil isə müxtəlif elementlərin müxtəlifliyi sayəsində nişanların fərqliliyini aşkar edir, buna görə də, nişanların oxşarlığının qiymətləndirilməsi zamanı ilk təəssüratı rəhbər tutmaq lazımdır”.*

*“...əsas amil o sayılır ki, qarışdırma nişanının yazılışının, tələffüzünün və mənasının oxşarlığı sayəsində meydana çıxa bilər və bu amillərin hər hansı birindəki oxşarlıq, əgər bu amil cəmiyyəti çaşdırırsa, pozulma halı üçün kifayətdir.*

*Əmtəə nişanlarının oxşarlığının yoxlanılması zamanı ikinci əsas amil ondan ibarətdir ki, nişanlar bütövlükdə müqayisə edilməlidir və ümumi olan elementlərə daha çox əhəmiyyət verilməlidir, hansılar ki, orta istehlakçı tərəfindən gözə çarpmayan, fərqliliyə varmadan yanlışlığa gətirib çıxara bilər”.*

Belə ki, müqayisə edilən nişanlar fonetik, semantik və qrafik cəhətdən qarışdırılacaq dərəcədə oxşardır. Həmçinin müqayisə edilən nişanlar eynicinsli əmtəələr üzrə qeydiyyata alınmışdır. Əmtəə nişanlarının ekspertizanın metodologiyasına uyğun olaraq, müqayisə edilən nişanların oxşarlığı nə qədər yüksəkdirsə, eynicinsli sayılan əmtəələrin siyahısı bir o qədər geniş olur. Əmtəələrin eynicinsli olması müəyyən edilərkən həmçinin aşağıda sadalanmış faktorlar nəzərə alınmalıdır: əmtəələrin növü və təyinatı, istehlakçı təbəqəsi və onların satış şəraiti. “MYTH” əmtəə nişanlarının 03-cü sinifdə əhatə etdiyi əmtəələr 2017 0567 No-li “MYTHS” əmtəə nişanının 03-cü sinifdə əhatə etdiyi əmtəələrlə eynicinslidir və bundan əlavə onların siyahısında eyni əmtəələr mövcuddur, göstərilən əmtəələr eyni təyinata, satış kanallarına və istehlakçı təbəqəsinə malikdir. Belə ki, 2017 0567 No-li qeydiyyata alınmış “MYTHS” əmtəə nişanına 03-cü sinif əmtəələri üzrə “Əmtəə Nişanları və Coğrafi Göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 5-ci və 6-cı Maddələrinin şərtlərinə zidd olaraq hüquqi mühafizə verilmişdir. “The Procter & Gamble Company” kompaniyasının dünya bazarında məhsullarının yüksək dərəcədə tanınmasını nəzərə alaraq, “MYTHS” nişanı ilə markalanmış 03-cü sinif əmtəələri istehlakçılar tərəfindən “The Procter & Gamble Company” kompaniyasının məhsulları kimi qəbul edilə bilər.

Bütün yuxarıda göstərilənlər ÜƏMT-nın “Tövsiyyələrində” aşağıda verilmiş tərzdə açıqlanmışdır:

*“Ən əsas amillərdən biri odur ki, istehlakçı əmtəə nişanlarını paralel olaraq müqayisə etmir: o mağazada pozucu nişanla markalanmış məhsulu görmədən üz-üzə gəlir, hansını ki, istehlakçı tanıyır və az-çox yadında saxlayır. Pozucu nişanla markalanmış malları o əsl mal kimi qəbul edir, hansını ki, o həqiqətən əldə etmək istəyir. Bu kontekstdə onu nəzərə almaq lazımdır ki, orta istehlakçı orta yaddaşa malikdir və onun üçün, onun üz-üzə gəldiyi əmtəə nişanının, onun tanıdığı nişan olub-olmaması barədə tərəddüd etməsi kifayətdir. Belə ki, orta istehlakçı ilk baxışda bir qayda olaraq onun tanıya biləcəyi nişanlar arasında fərqi görmür, əgər o həm nişanı, həm də onunla markalanmış əmtəəni diqqətlə öyrənsəydi, onun aldığı ilk təəssürat yanlış olmalıdır”.*

Beləliklə, 2017 0567 No-li “MYTHS” nişanının məşhur “MYTH” əmtəə nişanı ilə qarışdırılacaq qədər oxşar olmasını nəzərə alaraq, əmtəənin istehsalçısı barədə istehlakçıları yanılda bilən (müvafiq olaraq həm də, onların qeydiyyatı və keyfiyyəti) nişan kimi sayıla bilər. “MYTHS” əmtəə nişanının əsassız istifadə edilməsi onun sahibinə qeyri-qanuni gəlir gətirə bilər və müvafiq olaraq “The Procter & Gamble Company” kompaniyasına zərər vura bilər. Yuxarıda göstərilənlərə əsasən 2017 0567 No-li “MYTHS” əmtəə nişanı “Əmtəə Nişanları və Coğrafi Göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 5-ci və 6-cı Maddələrinə zidd olaraq qeydiyyata alındığı üçün onun 03-cü sinifdə əhatə etdiyi bütün əmtəələr üzrə qeydiyyatına vaxtından əvvəl xitam verilməsi Apellyasiya şurasından xahiş edilmişdir.

Apellyasiya şurasının iclası zamanı iddiaçının nümayəndəsi, patent müvəkkili V.F.Əfəndiyev bildirmişdir ki, 2017 0567 №-li "MYTHS" əmtəə nişanının sahibi "Amouge Saoc (Om)" şirkəti ilə danışıqlar aparılmış və əmtəə nişanının 03-cü sinifin əmtəələri üzrə aşağıda verilmiş tərzdə məhdudlaşdırılması barədə qarşılıqlı razılıq əldə edilmişdir:

"sabun" və "duşda və vannada istifadə üçün preparatlar" əmtəə nişanının siyahısından xaric edilir. "Efir yağları əmtəəsi isə "efir yağları camaşır və parçaya qulluq etmək üçün nəzərdə tutulanlar istisna olmaqla.

Göstərilənləri nəzərə alaraq, 2017 0567 №-li "MYTHS" əmtəə nişanın 03-cü sinifin əmtəələrinin siyahısının "Ətriyyat məhsulları; ətirlər; aromatik maddələr; efir yağları (camaşır və parçaya qulluq etmək üçün nəzərdə tutulanlar istisna olmaqla); kosmetik vasitələr; saç üçün losyonlar; saç və dəri qulluq üçün preparatlar; üz və bədən üçün kremlər və losyonlar; pudra; dezodoranlar" əmtəələri ilə məhdudlaşdırılmasını Apellyasiya şurasından xahiş etmişdir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, iddiaçının nümayəndəsi, patent müvəkkili V.F.Əfəndiyevin və X.N.Məmmədovanın çıxışını dinləyib, hesab etdi ki, iddia qismən təmin edilməlidir.

Apellyasiya şurası etirazla tanış olduqdan sonra ona aid 170116201531 saylı 30.11.2017 il tarixli məktubu "Amouge Saoc (Om)" şirkətinin ünvanına göndərmişdir. Məktub "Amouge Saoc (Om)" şirkətinə çatdırılmışdır.

Apellyasiya şurası təqdim edilən sənədləri və materialları (məlumatları) araşdıraraq müəyyən etdi ki:

**"MYTH"** adlı əmtəə nişanı 03-cü sinifin əmtəələri üzrə 19.07.2004-cü il tarixdə "The Procter & Gamble Company" /*ünvan* – One Procter & Gamble Plaza Cincinnati, Ohi, ABŞ (US)/ adına Azərbaycan Respublikasında 2004 0354 nömrəli qeydiyyata alınmışdır (əmtəə nişanının ilkinlik tarixi – 21.08.2003);

**"MYTHS"** adlı əmtəə nişanı 03-cü sinifin əmtəələri üzrə 20.06.2017 il tarixində "Amouage SAOC (OM)" *şirkətinə /ünvan:* PO Box 307, CPO 111, Seeb, Oman (OM)/ adına Azərbaycan Respublikasında 2017 0568 nömrəli qeydiyyata alınmışdır (əmtəə nişanının ilkinlik tarixi – 22.09.2016).

Apellyasiya şurası etiraza baxılma prosesində qeyd etdi ki, nişanların oxşarlığını müəyyən etmək üçün "Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları"nın 29.6.1-ci "Sözlərdən ibarət nişanların (işarələrin) oxşarlığını müəyyən etmək üçün onlar müqayisə edilir", 29.6.2-ci "Səs üzrə (fonetik) oxşarlıq", 29.6.3-cü "Qrafiki (görünüşlü) oxşarlıq", 29.6.4-cü "Məna etibarı ilə", 29.9.1-ci *("Əmtəələrin və ya göstərilən xidmətlərin həmcins olmaları müəyyən edilərkən, bu əmtəələrin və ya göstərilən xidmətlərin eyni sahibkara məxsus olması barədə istehlakçıda yarana biləcək təsəvvürlər nəzərə alınır")* və 29.9.2-ci *("Əmtəələrin və ya göstərilən xidmətlərin həmcins olması müəyyən edilərkən, xüsusən əmtəənin cinsi (növü) və ya göstərilən xidmətlərin şərtləri, istehlakçıların dairəsi və digər şərtlər nəzərə alınır")* bəndlərində göstərilən əlamətlər nəzərə alınmalıdır.

Apellyasiya şurası işi araşdıraraq müəyyən etdi ki. "MYTH" və "MYTHS" əmtəə nişanlari fonetik, qrafik və semantik cəhətdən oxşardırlar. Həmçinin "MYTHS" adlı əmtəə nişanının 03-cü sinifin əmtəələri və "MYTH" adlı əmtəə nişanının 03-cü sinifin əmtəələri üst-üstə düşür.

"Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanunun 10-cu maddəsindən və təqdim edilən sənədlərdən görünür ki, **"MYTHS"** adlı əmtəə nişanının (2017 0568 nömrəli qeydiyyat) ilkinlik tarixi – 22.09.2016 il tarixidir, **"MYTH"** adlı əmtəə nişanının (2004 0354 nömrəli qeydiyyat) ilkinlik tarixi 21.08.2003 il tarixidir. Göründüyü kimi **"MYTH"** adlı əmtəə nişanının ilkinliyi üstündür.

Apellyasiya şurasının iclası zamanı iddiaçının nümayəndəsi, patent müvəkkili V.F.Əfəndiyev bildirmişdir ki, "MYTHS" əmtəə nişanının sahibi "Amouge Saoc (Om)" şirkəti ilə danışıqlar aparılmış və "MYTHS" əmtəə nişanın 03-cü sinifin əmtəələrinin siyahısının

**“Ətriyyat məhsulları; ətirlər; aromatik maddələr; efir yağları (camaşır və parçaya qulluq etmək üçün nəzərdə tutulanlar istisna olmaqla); kosmetik vasitələr; saç üçün losyonlar; saç və dəri qulluq üçün preparatlar; üz və bədən üçün kremlər və losyonlar; pudra; dezodoranlar” əmtəələri ilə məhdudlaşdırılması barədə qarşılıqlı razılıq əldə edilmişdir.**

Yuxarıda göstərilmiş tərzdə 3-cü sinifdə əmtəələrin siyahısının məhdudlaşdırılması nəticəsində hər iki əmtəə nişanının 3-cü sinifdə əhatə etdiyi əmtəələrin siyahısı biri-birindən tamamilə fərqli müstəviyə keçir və bu nişanlar 3-cü sinif əmtəələri üzrə biri-biri ilə ziddiyyət təşkil etmirlər.

Əmtəə nişanının təyinatına uyğun olaraq onun əsas məqsədi bir sahibkarın əmtəələrini və ya göstərdiyi xidmətləri digər sahibkarın əmtəələrindən və ya göstərdiyi xidmətlərdən fərqləndirməkdən ibarətdir.

Şərh edilənlərə əsasən, “Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları”nın 29.4-cü, 29.6.4-cü, 29.9.1-ci, 29.9.2-ci bəndlərini, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununun 6-cı maddəsinin birinci hissəsinin “a” və “b” bəndlərini, 10-cu maddəsini, 29-cu maddəsinin birinci və altıncı hissələrini rəhbər tutaraq Apellyasiya şurası

Qərara aldı:

1. **“MYTHS”** adlı əmtəə nişanının 03-cu sinifin əmtəələri üzrə qeydiyyatına qarşı “The Procter & Gamble Company (US)” kompaniyasının adından patent müvəkkili V.F.Əfəndiyev tərəfindən Apellyasiya şurasına verilmiş etiraz ərizəsi əsaslı hesab edilsin və qismən təmin edilsin.
2. **“MYTHS”** adlı əmtəə nişanının 2017 0567 nömrəli qeydiyyatı 03-cü sinifin əmtəələrinin siyahısının **“Ətriyyat məhsulları; ətirlər; aromatik maddələr; efir yağları (camaşır və parçaya qulluq etmək üçün nəzərdə tutulanlar istisna olmaqla); kosmetik vasitələr; saç üçün losyonlar; saç və dəri qulluq üçün preparatlar; üz və bədən üçün kremlər və losyonlar; pudra; dezodoranlar”** əmtəələri ilə məhdudlaşdırılmaqla qüvvədə saxlanılsın.
3. Apellyasiya şurasının qərarının alındığı tarixdən Azərbaycan Respublikasının İnzibati Prossesual Məcəlləsi ilə müəyyən edilmiş qaydada məhkəməyə şikayət verilə bilər.

Apellyasiya şurasının sədri Z.T.Hacıyev

üzvləri: N.F.Nəsibova,

E.Ş.Qafarov,